**AYTƏN İSGƏNDƏRZADƏ**
**ADPU**
**Üzeyir Hacıbəyli 48**
**isgandarzadaa@gmail.com**

# ƏDƏBİ MATERIALLARIN MƏNİMSƏNILMƏSİNDƏ FƏNLƏRARASI ƏLAQƏLƏRIN ROLU

**Xülasə**

Müasir dövrdə inteqrasiya ifadəsindən tez-tez istifadə olunur. İnteqrasiya daimi, sistemli xarakter daşıyıb, bütövə çevrilmədə mühüm rol oynayır**.** İnteqrasiya təhsilalanların dünyagörüşünün formalaşmasında və nəzəri biliklərin təcrübədə tətbiq edilməsində böyük əhəmiyyət kəsb edir. Təhsilin məzmunun mənimsənilməsində də inteqrasiya böyük rol oynayır. İnteraktiv təlim dərslərin məhsuldarlığına və şagirdlərin təlim prosesində aktvliyinə xidmət edir. Məqalədə inteqrasityanın mahiyyəti açıqlanır, ədəbiyyat dərslərində fənlərarası əlqədən bəhz olunur. Bundan başqa, məqalədə bir sıra məsələlərə də aydınlıq gətirilir:

1. Ümumtəhsil məktəblərin fənlərarası əlaqələrin inkişafında rolu;
2. Bu baxımdan məktəblərin qarşısında duran vəzifələr;
3. Ümumtəhsil məktəblərində təlimin yaxşılaşdırılmasına dair müxtəlif pedaqoji yanaşmalar;
4. Həmçinin Ədəbiyyatın Azərbaycan dili, Azərbaycan tarixi, İnformatika, Riyaziyyat,

Həyat bilgisi və s. kimi fənlərlə inteqrasiyasına nümunələr verilmişdir.

***Açar sözlər**: təhsil, inteqrasiya, ədəbiyyat, informasiya, əlaqə.*

Azərbaycan Respublikasının müstəqilliyinin möhkəmləndiyi bir vaxta ölkəmizin bütün sahələrində, o cümlədən təhsil sahəsində, islahatlar uğurla davam etdirilir. Bu sahədə isə ən önəmli məsələ gənc nəslin təlim-tərbiyə işinin düzgün aparılmasından asılıdır. İnkaredilməz həqiqətdir ki, təməl düzgün qoyulmadıqda gələcəkdə həmin sahədə nailiyyətlərdən söz açmaq olmaz. Deməli, müstəqil Azərbaycanda təhsil sahəsinin yenidən qurulması qarşıda duran mühüm məsələlərdən biridir. Bu məsələləri həyata keçirmək üçün yeni Təhsil Proqramının qəbul olunması zərurəti yaranır. Proqram yaratmaq üçün Dövlət Komissiyası təşkil olundu və Proqram hazırlandı. İslahat Proqramında Azərbaycan təhsil sistemində mövcud olan vəziyyət təhlil olunub, qarşıda duran vəzifələr müəyyənləşdirilmişdir.

Hərtərəfli inkişaf etmiş hər hansı bir şəxs ətrafda baş verən hadisələrə biganə qala bilməz, onlar ətrafda baş verən hadisələrin səbəbini izah etməyə, ona münasibət bildirməyə səy göstərməlidir. Bunun əası isə, heç şübhəsiz, məktəbdə qoyulur. Məktəbdə tədris olunan fənlər arasında əlaqə mövcuddur. Müasir dövrdə inteqrasiya (fənlərarası və fəndaxili) ifadəsi çox işlədilməkdədir. İnteqrasiya hissələrin birləşməsi, bütövləşməsi deməkdir. Metodik ədəbiyyatda inteqrasiya anlayışının mahiyyəti belə şərh olunur: inteqrasiya müəyyən təhsil sistemi çərçivəsində şagirdlərin təfəkküründə dünyanın bütöv və bölünməz obrazını formalaşdırmaq, onları inkişafa və özünüinkişafa istiqamətləndirmək məqsədi ilə təlimin bütün məzmun komponentləri arasında struktur əlaqələri qurmaq və onları sistemləşdirməkdir. Bunu təlim fənlərinə şamil etdikdə fənlərarası və fəndaxili əlaqə kimi özünü biruzə vermiş olur. Təcrübə göstərir ki, şagirdlərin dünyagörüşünün formalaşmaında, biliklərin zənginləşməsində, fəallığın təmin olunmasında, məzmunun hərtərəfli mənimsənilməsində inteqrasiyanın rolu danılmazdır. Təlimdə inteqrativlik şagirdlərə hər hansı bir mövzunun mənimsənilməsində, dünyagörüşün formalaşmasına müsbət təsir edir. Amma bu o zaman mümkün olur ki, tədris olunan fənlər və onları əhatə edən mövzular ayrı-ayrı deyil, əlaqəli-inteqrativ şəkildə tədris olunsun.

Bu mənada ədəbiyyat fənni üzrə təhsil proqramında mövzunun daha dərindən mənimsənilməsi üçün fənlərarasə və fəndaxili əlaqə - inteqrasiya əsas məsələlərdən biri kimi təqdim olunur. Ona

görə də bu məqalədə ədəbi materialların şagirdlər tərəfindən mənimsənilməsində fənlərarası inteqrasiyanın ön plana çəkildiyindən danışmaq istərdik. Bədii ədəbiyyat bir növ həyatın inikasıdır. Bildiyimiz kimi, ətraf aləmdə baş verən hadisələr öz əksini bədii nümunədə tapır. Məhz inteqrativlik də özünü burada östərir.

Ədəbiyyat elə bir fəndir ki, Azərbaycan dili, tarix, coğrafiya, həyat bilgisi, riyaziyyat, informatika, təsviri incəsənət və s. fənləri özündə inteqrasiya edə bilir. Ona görə də dərsliklərimiz hazırlanarkən ədəbiyyatımızın bütün imkanları nəzərə alınır, məktəblilərin dünyagörüşünün genişlənməsində, estetik zövglərinin inkişafında əhəmiyyətli dərəcədə təsirli ola bilən mövzular salınır ki, müəllimlər bu mövzulardan istifadə edib, digər fənlərlə inteqrativ əlaqə imkanlarından istifadə edirlər. Ədəbiyyat müəllimi hər hansı sinifdə olursa-olsun, yeni müvzunun mənimsənilməsinə zəmin yaratmaq üçün əvvəlcədən inteqrativ əlaqə imkanlarını götür-qoy edir, dərsin hansı mərhələsində hansı üsuldan istifadə edəcəyi barədə iş aparır. Ədəbiyyatın digər fənlərlə əlaqəsi zamanı müəllim inteqrasiya olunan fənləri heç olmazsa orta səviyyədə bilməli və lazım olarsa, əlavə ədəbiyyat oxumalıdır ki, istənilən nəticəni əldə edə bilsin. Ona görə də müəllim yaradıcı olmalı, öz üzərində daima çalışmalıdır. Bu gün qohum fənlərin yox, bir-birinə az da olsa yaxınlığı olan fənlərin inteqrasiyası şagirdlərdə daha böyük marağa səbəb olur.

Hər bir müəllim Azərbaycanın gələcəyi üçün kamil insanlar, öz erudisiyası, intellektuallığı ilə seçilən, milli-bəşəri dəyərlərini qoruyub inkişaf etdirən, vətənpərvər vətəndaşlar tərbiyə etməlidir. Yüksək elmi biliklərin, təlim metodlarının tələb olunduğu belə bir dövrdə fənlərarası əlaqənin təmin olunması tədris materiallarının mahiyyəti haqqında daha geniş təsəvvürlərin formalaşdırılmasına, bilik, bacarıq və vərdişlərin sistemli şəkildə aşılanmasına geniş imkan yaradır. Fənlərarası əlaqə yolu ilə konkret anlayışlar müxtəlif fənlərdə izah edilir. Şagirdlər yeni bilik qazanmaqla yanaşı, tədqiqatçılıq qabiliyyətini gücləndirir, müstəqil fikir yürüdürlər. Fənlərarası əlaqənin 4 növü var: qohum fənlərlə (riyaziyyat, rəsmxətt, kimya, biologiya, astronomiya, fizika, coğrafiya, təbiətşünaslıq) əlaqə ; ictimai-humanitar fənlərlə (tarix, ədəbiyyat, iqtisadi coğrafiya, insan və cəmiyyət) əlaqə; praktik fənlərlə (bədən tərbiyəsi, əmək təlimi, rəsm) əlaqə. Ədəbiyyat fənninin tədrisi zamanı da fənlərarası əlaqədən istifadə etmək mümkündür.

Fikirlərimizi ədəbiyyat dərslərində mövzularla bağlı müxtəlif fənlərlə inteqrasiyasını yarada biləcək bir neçə nümunə əsasında ifadə etmək istərdim:

"Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy" əsərinin inteqrasiyasını belə təşkil etmək mümkündür. Adı çəkilən ərazilərin göstərilməsi və bu gün dünyanın siyasi xəritəsindəki yerini təyin etməklə (Cızıqlar, Ağlağan, Göyçə dağı, Dərbənd, Ağca qala Sürməli) coğrafiya, dastandakı hadisələrin Məhəmməd peyğəmbərə (s) yaxın zamanda, Bükdüz Əmənin varıb Peyğəmbərin (s) üzünü görməsi məqamını dinin meydana gəlməsi ilə əlaqələndirib həyat bilgisi, həmin dövrdə böyük imperiyalar yaratmış türk xalqlarının tarixi ilə əlaqələndirib ümumi tarix fənləri ilə inteqrasiyasını təşkil etmək olar (8-ci sinif) (2, 12).

Şah İsmayıl Xətainin "Bahariyyə" əsərinin tədrisində şeirdə o dövr üçün səciyyəvi, lakin bü gün çətin anlaşılan sözlərin işlənməsinə görə Azərbaycan dili, Şah İsmayılın görkəmli dövlət xadimi və tarixi şəxsiyyət olaraq Azərbaycan tarixindəki mövqeyi və roluna görə Azərbaycan tarixi, bahar fəslində bitki və heyvanların oyanışı ilə təbiətdə baş verən hadisələrin təsvirinə görə biologiya və bu təsvirlərin şagirdlərin rəsmlərdə əks etdirmələrinə görə təsviri incəsənət ilə fənlərarası inteqrasiyasını təşkil etmək olar (8-ci sinif) (3,43).

Cəlil Məmmədquluzadənin "Qurbanəli bəy" hekayəsinin tədrisində də bir neçə fənnin qarşılıqlı əlaqəsini göstərmək olar. Azərbaycan tarixinin Rusiya imperiyasından asılılığını göstərən məqamların bolluğu (kəndin adının Qapazlı olması, kəndlilərin rus mülkədarlarının qulluğunda müti durması, əsərdə o dövrdə işlənən rus sözləri (qlava, pristav, naçalnik və s.), əsərdə kəndlilərin yallı getmələri üçün məcbur edilməsi) Azərbaycan tarixi, Qurbanəli bəyin "Uzundərə" rəqsini oynamaq istəməsi gözəl rəqsimiz haqda daha dolğun məlumat vermək üçün musiqi, Qurbanəli bəy obrazı haqqında əlavə məlumat vermək üçün internetdən istifadə etmək informatika fənləri ilə əlaqəni yaratmaq olar (8-ci sinif) (3,92).

Səməd Vurğunun "Ananın öyüdü" əsərinin tədrisində də inteqrasiyanı bir neçə fənn ilə yaratmaq mümkündür. Şeirin yazılma tarixinə nəzər salınır. Əsər 23 iyun 1941-ci ildə - Böyük Vətən

müharibəsinin başlandığı gündən bir gün sonra qələmə alınıb. Dünya tarixində ən ağır müharibə kimi qiymətləndirilən bu müharibə haqqında ümumi tarix, bəşəri dəyərlərin təbliğinə görə həyat bilgisi, müharibənin əhatə etdiyi dünya ölkələrinə görə coğrafiya fənləri ilə əlaqəsini vermək olar (9-cu sinif) (2,168).

Maqsud İbrahimbəyovun "Püstə ağacı" əsərini tədris edərkən fənlərarası əlaqədən istifadə etmək olar. Belə bir dərsinn telekörpü vasitəsilə keçirilməsi, müxtəlif fənlərlə canlı bağlantının yaradılması şagirdlərin yeni bilik əldə etməsi ilə bərabər, eyni vaxtda müəyyən fikrə qarşı mülahizələr yürütməyinə də imkan verir.

"Püstə ağacı " əsərini öyrənən şagirdlər burada baş verən hadisələrin səbəblərini, mənfi və müsbət tərəflərini, həlli yollarını və nəticələrini hər üç fəndə: tarix, ədəbiyyat və biologiyada qarşılıqlı şəkildə izah edə bilərlər.

Belə ki, "Püstə ağacı" əsərində hadisələr Böyük Vətən müharibəsi illərində baş verir. Ədəbiyyat baxımından əsərlə tanış olan şagirdlər müharibənin acınacaqlı fəsadlarını tarix fənni baxımından da izah etməyə çalışırlar. Onlar bildirirlər ki, müstəmləkəçilikdən azad olaraq müstəqilliyə nail olmaq müharibənin müsbət cəhəti hesab edilsə də, mənfi cəhətləri də olduqca çoxdur. Belə ki, saysız-hesabsız insan tələfatı, qədim abidələrin məhv olması, sənaye mərkəzlərinin dağıdılması, müharibələrin mənfi tərəfi kimi qiymətləndirilir. Neçə –neçə insanlar ailə üzvlərini itirir. "Püstə ağacı" əsərində də qadın öz həyat yoldaşını itirib. Müharibənin fəsadları qadının psixologiyasında müxtəlif dəyişikliklərə səbəb olub. O, münaqişələrin zəmnində rəftarını dəyişib. Sosioloji, psixoloji münaqişələr onun daxili münaqişəsinin yaranmasına yol açıb. Söylənilən fikirlərə biologiya fənnində iştirak edən şagirdlər də qatıla bilərlər. Sözsüz ki, müharibənin törətdiyi dəhşətlər "ana təbiət"in üzərindən də yan keçmir. Müharibə tarixdə özünü insanların qanı, ədəbiyyatda göz yaşları və kobudlaşmış rəftarı ilə göstərirsə, biologiyada bu, canlı təbiətin məhvi kimi önə çəkilir. Hər üçündə qurbana çevrilənlər canlılardır. M.İbrahimbəyovun " Püstə ağacı " əsəri ilə tanış olduqdan sonra şagirdlər belə bir nəticəyə gəlirlər ki, münaqişə, müharibə mövzusunu hər üç fənnin arasında ( tarix, ədəbiyyat, biologiya ) müzakirə etmək mümkündür. Tarixdə, biologiyada münaqişələrə, müharibələrə "yox!" deyildiyi kimi, bədii ədəbiyyat nümunələrində də müharibələr birmənalı olaraq etirazla qarşılanılır. Dahi Nizami Gəncəvi deyir: Döyüşdən yaxşıdır barışıq, şəfqət Biri dərd gətirir, biri səadət Madam ki, sülh ilə göyərər dilək, Döyüşə at çapmaq daha nə gərək. Zülmü birdəfəlik eylə sən kənar, Çünki zülmkarlıq ömrü azaldar. Bir yerdə insafdan olmasa nişan, Quruyar istidən, çürüyər sudan.

Məlumdur ki, hazırkı dövrdə ədəbiyyat dərslərində müəllimlər üçün ən vacib tələblərdən biri də şagirdlərə vətənpərvərlik hissləri aşılamaq və onları gücləndirməkdir. Bu baxımdan VI sinifdə Hikmət Ziyanın "Qarabağda" şeiri xüsusilə xarakterikdir. Bu mövzunu keçərkən motivasiya yaratmaq üçün kompüterin proyektoru vasitəsi ilə lövhəyə həm Azərbaycanın, həm də Qarabağın ayrıca xəritələri gətirilir.

Sonra isə müəllim xəritədə şeirdə adları ayrıca hallanan Şuşanı, Bərdəni, Ağdamı, Füzulini şagirdlərə göstərib, onlar haqqında nə bildiklərini, onlardan hansının ermənilərin işğalı altında olduğunu soruşur. Burada ədəbiyyat fənninin coğrafiya fənni ilə əlaqəsindən danışmaq olar. Şagirdlərdən Qarabağın əsrarəngiz təbiəti haqqında məlumat aldıqdan, ermənilərin bu əzəli Azərbaycan torpaqlarını nə vaxt işğal etmələri haqqında soruşduqdan sonra Hikmət Ziyanın "Qarabağda" şeirini ayrı-ayrı qruplara hissə-hissə oxumalarını tapşırıq verirəm. Motivasiyada Qarabağın təbiəti, gözəllikləri haqqında məlumat verməyim, onların şəkillərini İKT vasitəsi ilə göstərməyim təbiidir ki, şagirdlərdə dərs haqqında ilkin təsəvvür yaradır və nəticə etibarı ilə əqli hücum rolunu oynayır.

Motivasiyada İKT-dən belə geniş istifadə etməyim həm şagirdlərdə mövzuya maraq, həm də artıq ilkin təsəvvür yaradır ki, bu da dərsin daha asanlıqla mənimsənilməsinə səbəb olur.

Əlbəttə, ədəbiyyatın yaxın fənlərlə (azərbaycan dili, tarix, xarici dil) inteqrasiya imkaları çox genişdir və bir çox mövzuların tədrisində tətbiq edilir. Lakin ədəbiyyat dərslərində müxtəlif mövzuların riyaziyyatla əlaqələndirilməsi şagirdlərdə böyük maraq doğurur və dərs daha canlı keçir. Bədii ədəbiyyat insanların taleyini, əməllərini söz vasitəsilə əks etdirirsə, oxuculara çatdırırsa, riyaziyyatda da hər hansı bir təklif teorem, qayda, düstur vasitəsilə öz əksini tapır. Dünya

ədəbiyyatından məlumdur ki, böyük yazıçılar, şairlər həm də riyaziyyatçı olmuşlar, riyaziyyatı sevmiş və riyaziyyat haqqında maraqlı fikirlər söyləmişlər. Məsələn, böyük rus şairi A.S.Puşkin demişdir ki, "Qəlbən şair olmayan əsl riyaziyyatçı ola bilməz", "Həndəsədə olduğu kimi poeziyada da ilham lazımdır", yaxud M.V.Lomonosovun dediyi başqa bir fikrə görə, "Riyaziyyatı ona görə öyrənmək lazımdır ki, o zehni qaydaya salır". Əlbəttə, bu müdrik sözlər riyaziyyat və ədəbiyyat fənlərinin bir-birinə yaxınlığını göstərir. Ədəbiyyatdan məlumdur ki, məcaz növlərindən biri təşbehdir (bənzətmədir). Yazıçı bəzən təsvir etdiyi bir əşyanı, hadisəni müəyyən əlamətinə görə başqa əşya və hadisəyə bənzədir. Odur ki, riyaziyyatda da müəllim hər bir riyazi termini, həndəsi fiqurları müəyyən rəmzə çevirmək, bənzətmək məharətinə malik olmalıdır. Məsələn: Bənzər günəşə, aya, Diyirlənər hər yana. Təkər kimi girdədir, Onun adı, de nədir? Şifahi xalq ədəbiyyatının qədim və maraqlı nümunələrindən olan bayatılar və tapmacalar insanların bədii zövqünü yüksəltməklə bərabər, həm də zehni qabiliyyətini inkişaf etdirir. Odur ki, riyaziyyat müəllimləri dərslərində belə bənzətmələrdən - şeirlə ifadə edilmiş məsələ və misallardan geniş istifadə edirlər. Məsələn, "adi kəsrlər" mövzusunu tədris edərkən adi kəsrin qiymətinin vahiddən böyük olmadığını belə bir şeir parçası ilə şagirdlərə çatdırırlar.

Müasir dövrdə ölkəmizdə yaradıcı təfəkkürlü şagirdlərin tədqiqatçılıq qabiliyyətinin dəyərləndirilməsi və inkişaf etdirilməsinə zamanın tələbi kimi baxılır. Məhz bunun nəticəsidir ki, orta ümumtəhsil məktəblərində yaradıcı təfəkkürlü, tədqiqatçılıq bacarığı ilə seçilən yeniyetmə və gənclərlə məqsədyönlü işlər aparılır. Bu baxımdan yaradıcı təfəkkürlü şagirdləri tədqiqatçılıq işlərinə cəlb etmək sahəsində ədəbiyyat müəllimlərinin gördükləri işlər, topladıqları təcrübə diqqəti cəlb edir. Belə şagirdlərin elmə müstəqil yiyələnə bilmək imkanlarını, bacarıqlarını nəzərə ədəbiyyat müəllimləri onlarda Azərbaycan dilinə, ədəbiyyatına aid elmi anlayışları yetərincə anlamaq, müstəqil mühakimə yürütmək bacarıqlarını formalaşdırmağa çalışırlar. Onlar şagirdlərin bu gün mənimsədikləri, öyrəndiləri biliklərin möhkəm bünövrə, güclü təməl üzərində qurulması üçün ən önəmli metod və üsullardan yararlanırlar.

Ədəbiyyat müəllimlərindən mükəmməl elmi bilik, gərəkli, dəyərli məsləhətlər alan yaradıcı təfəkkürlü şagirdlər gələcəkdə yüksək istedadlı, dərin bilikli alim, mənəviyyatca zəngin şəxsiyyətlər kimi yetişirlər.

Təhsilin inkişafı üzrə Dövlət Strategiyasında təhsil sistemində fəal, interaktiv təlim metodlarının tətbiqi məsələsinə xüsusi diqqət yetirilmişdir. Strategiyada təhsilin inkişafında mühüm uğurlar qazanmış ölkələrin təcrübəsi təhlil edilmiş və belə qənaətə gəlinmişdir ki, informasiya-kommunikasiya texnologiyalarına əsaslanan, yaradıcı düşüncənin inkişafına çalışan, yaradıcı təfəkkürlü şagirdlərin təqdiqatçılıq qabiliyyətlərinin fərdi səciyyə daşıdığını gözdən qaçırmayan, onun diqqətdən yayınmasının qarşısını alan müasir, fəal interaktiv təlim metodları daha yüksək, önəmli nəticələr verir.

Bununla yanaşı, adıçəkilən dövlət sənədində əksər müəllimlərin digər fənlər kimi, ədəbiyyatın da tədrisində tətbiq etdikləri metodların müsair tələblərdən geri qaldığı qeyd olunur və bu geriliyin aradan qaldırılması, yeni təlim metodlarının dərslərdə fəal tətbiqinin zəruriliyi vurğulanıb.

Yaradıcı təfəkkürlü şagirdlərin potensial imkanlarının reallaşması, onlardakı tədqiqatçılıq qabiliyyətinin üzə çıxması, vərdişə çevrilməsi üçün ilk növbədə fənn müəllimlərinin yetərincə pedaqoji ustalığı olmalıdır. Araşdırmalar, tədris prosesindən canlı müşahidələr, məktəb təcrübəsinin öyrənilməsi göstərir ki, fəal, interaktiv təlim probleminin mahiyyətindən və üstünlüklərindən xəbərsiz olan ədəbiyyat müəllimləri yaradıcı təfəkkürü, tədqiqatçılıq qabiliyyəti ilə seçilən şagirdlərlə normal pedaqoji ünsiyyətə girməkdə çətinlik çəkirlər. Bu elmi-pedaqoji keyfiyyətin daşıyıcısı olmaq üçün ədəbiyyat müəllimləri böyük zəhmət sərf etməli, ardıcıl yaradıcılıq axtarışları aparmalı, zəngin biliyə və metodik hazırlığa yiyələnməlidirlər. Bu məqsədlə hər bir müəllim elmi-metodik ədəbiyyatı dərindən öyrənməli, qabaqcıl iş təcrübəsi nümunələrinə həssaslıqla yanaşmalı, fənlərarası əlaqələrin səmərəliyi, vacibliyi barədə şagirdlərə daha dolğun məlumat vermək üçün əhəmiyyətli, dəyərli, elmi-metodik səciyyəli, pedaqoji tələblərə cavab verən dərs vəsaitlərindən, məqalələrdən, tədris-metodik işlərdən bəhrələnməlidir. İndi bəzən məktəb təcrübəsində sınaqdan çıxmayan, səmərəsini göstərməyən uğursuz dərslərin mətbuatda, internetdə interaktiv təlim nümunəsi kimi təqdim olunması, ədəbiyyat fənni üçün səciyyəvi sayılmayan

interaktiv təlim nümunəsi adlandırılması kimi hallara da rast gəlirik. Yaradıcı müəllim əsl innovativ metod və yanaşmaları belə üzdəniraq "metodlardan", təcrübədən fərqləndirməyi bacarmalıdır.

Qeyd etdiyimiz kimi, ədəbiyyat fənni özündə həyati hadisələri ehtiva etdiyinə görə, digər fənnlər ilə asanlıqla qarşılıqlı əlaqəsini göstərmək olur. Ancaq o da qeyd edilməlidir ki, fənlərarası inteqrasiya müəllimin özündən də dərin bilik, zəngin dünyagörüşü, güclü bədii təxəyyül, tədris etdiyi fənnə sonsuz sevgi və daim öz üzərində işləmək keyfiyyətlərini tələb edir. Hesab edirik ki, məhz bu keyfiyyətlərə görə fənlərarası inteqrasiyanı və fənlərin qarşılıqlı əlaqəsini qurmaq mümkün olur.

## İstifadə olunmuş ədəbiyyat:


1. Ağayev Ə.A. Təlim prosesi: ənənə və müasirlik. Bakı, "Adiloğlu", 2006, s.72.
2. Ədəbiyyat. Ümumtəhsil məktəblər IX sinif üçün dərslik. Bakı, Bakı nəşriyyatı, 2016, 224s.
3. Ədəbiyyat. Ümumtəhsil məktəblər VIII sinif üçün dərslik. Bakı, Bakı nəşriyyatı, 2015, 207s.
4. Mikayılov Ş. Ümumtəhsil məktəblərin V-XI siniflərində ədəbiyyatı tədrisi metodikası. Bakı, 2008, 110.
5. Muradova S. Tarix fənninin digər fənlərlə inteqrasiyası. Kurikulum, elmi-metodik jurnal, 2012, №1, s.9-12.


**А.Искендерзаде**

## Роль интеграции в усвоении литературного материала

## Резюме


В современное время слово «интеграция» встречается все чаще и чаще. Интеграция имеет постоянный, систематический характер и играет важную роль в превращении в единое целое. Интеграция играет большую роль в усвоении содержания образования, в практическом применении теоретических знаний и формировании мировоззрений учащихся.

Как мы уже отмечали, литературная наука способна легко взаимодействовать с другими дисциплинами, потому что она содержит жизненные события. Однако следует отметить, что междисциплинарная интеграция требует от учителя более глубоких знаний, богатого мировоззрения, сильного художественного воображения, предмета, которому он учил, бесконечной любви и постоянной работы над собой. Мы считаем, что возможно установить междисциплинарную интеграцию и взаимодействие субъектов в соответствии с этими качествами.

Интерактивное обучение служит для продуктивности уроков и активности учеников в учебном процессе. В статье раскрывается сущность интеграции, говорится о межпредметных связях литературы. Кроме того, в статье приводится ясность в некоторые вопросы:

1. Роль общеобразовательных школ в развитии межпредметных связей.
2. Задачи, стоящие перед общеобразовательными школами.
3. Различные педагогические подходы для улучшения качества преподавания в общеобразовательных школах.
4. В статье также приведены примеры интеграции Литературы с такими предметами как Азербайджанский язык, История Азербайджана, Информатика, Математика, Познание мира и т.д.


***Ключевые слова**: образование, интеграция, литература, информация, связь.*

**A.Isgandarzade**

## The role of integration in learning literature materials

**Summary**

Nowadays, the term integration is frequently used. Being permanent and systematic, integration plays an important role in becoming whole. Integration plays an important role in the formulating the overview of students and applying knowledge into practice, acquiring the content of education. Integration also plays an important role in acquiring the content of education.

As we have already researched, the literary science is just as easy to interact with other disciplines as it is a live event. Only then would the interdisciplinary integration be required by the teacher to be more than a few people, the great healer, the supernatural imagery, the subject, the ten educated, the infinite love and the constant workmanship. We believe that it is possible to establish interdisciplinary integration and interconnectivity with the relevant elements.

In the article, the essence of integration is explained and interdisciplinary relation is mentioned. Besides, some other points are also mentioned in the article:

1. The role of schools in the development of interdisciplinary relation;
2. The duties of the schools for this;
3. Various pedagogical approaches for improving education at schools;
4. Also examples for the integration between Literature, Azerbaijani language, Azerbaijan history, Informatics, Mathematics, Life information and etc. subjects.

***Key words***: *education, integration, literature, information, relation*

Redaksiyaya daxil olma tarixi: 01.04.2019
Çapa qəbul olunma tarixi: 17.04.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Nigar Qasımzadə tərəfindən çapa tövsiyə olunmuşdur.